# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Arbitraj haqqında” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 2455 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 may 2024-cü il

№ 243

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 3 may
tarixli 243 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 11.6-cı maddəsinə əsasən hazırlanmışdır və daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi qaydasını müəyyən edir.

1.2. Daimi arbitraj təşkilatı mübahisənin həlli üçün arbitraj məhkəməsinin səlahiyyətlərinə aid məsələlər istisna olmaqla, arbitraj icraatının idarə edilməsi, arbitrajın təşkilati təminatı, o cümlədən arbitrlərin təyin olunması, onlara etiraz edilməsi və onların səlahiyyətinə (mandatına) xitam verilməsi məsələlərinin həlli, kargüzarlıq, arbitraj haqlarının və digər arbitraj xərclərinin ödənilməsinin təşkili funksiyalarını həyata keçirir.

1.3. Daimi arbitraj təşkilatı kimi fəaliyyət göstərmək üçün qeyri-kommersiya hüquqi şəxslərin akkreditasiyadan keçirilməsi və onların akkreditasiyasının ləğvi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən həyata keçirilir.

1.4. Bu Qaydanın müddəaları beynəlxalq və ya xarici daimi arbitraj təşkilatlarına tətbiq edilmir.

## 2. Daimi arbitraj təşkilatı kimi akkreditasiyadan keçmək üçün sənədlərin (məlumatların) təqdim edilməsi

2.1. Daimi arbitraj təşkilatı kimi fəaliyyət göstərmək məqsədilə qeyri-kommersiya hüquqi şəxsləri (bundan sonra – hüquqi şəxs) akkreditasiyadan keçmək üçün bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun tərtib edilmiş ərizə ilə Nazirliyə müraciət edir. Ərizə elektron qaydada, poçt rabitəsi vasitəsilə və ya şəxsən hüquqi şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən kağız daşıyıcıda Nazirliyə təqdim edilir. Ərizəyə aşağıdakı sənədlər (məlumatlar) əlavə edilməlidir:

2.1.1. hüquqi şəxsin nizamnaməsinin, VÖEN-in və dövlət vergi orqanında qeydiyyata alınmasını təsdiq edən sənədinin notarial qaydada təsdiq edilmiş surətləri;

2.1.2. daimi arbitraj təşkilatının idarəetmə orqanı tərəfindən təsdiq edilmiş daimi arbitraj təşkilatının qaydaları;

2.1.3. daimi arbitraj təşkilatının azı 3 (üç) arbitrin daxil olduğu ilkin arbitr siyahısı, siyahıya daxil edilən arbitrlərin Qanunun 14-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verdiyini təsdiq edən sənədlər (şəxsiyyət vəsiqəsi, təhsil haqqında dövlət sənədi və iş stajını təsdiq edən sənəd), habelə həmin şəxslərin ilkin arbitr siyahısına daxil edilmələrinə notarial qaydada təsdiq edilmiş yazılı razılıqları;

2.1.4. daimi arbitraj təşkilatının müstəqilliyi, fəaliyyətinin təşkili üçün müvafiq struktur bölmələrinin mövcudluğu barədə məlumat və həmin struktur bölmələrinin fəaliyyətini tənzimləyən daimi arbitraj təşkilatının idarəetmə orqanı tərəfindən təsdiq edilmiş daxili qaydalar;

2.1.5. arbitraj icraatının idarə edilməsi üçün insan resurslarının mövcudluğu barədə məlumat və həmin şəxslərin peşə hazırlığını təsdiq edən sənədlər, o cümlədən işçilərlə bağlanılmış əmək müqaviləsinə dair Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminin “əmək müqaviləsi bildirişi” altsistemindən çıxarış;

2.1.6. arbitraj icraatının idarə edilməsi üçün maliyyə resurslarının mövcudluğu barədə məlumat, hüquqi şəxsin son bir il üzrə maliyyə hesabatı, yaxud bank hesabından çıxarış;

2.1.7. arbitraj icraatının idarə edilməsi üçün zəruri infrastrukturun mövcudluğu barədə məlumat, daimi arbitraj təşkilatının ofisinin yerləşdiyi qeyri-yaşayış sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən daşınmaz əmlakın dövlət reyestrindən çıxarış;

2.1.8. daimi arbitraj təşkilatının işçilərinə münasibətdə daimi arbitraj təşkilatının idarəetmə orqanı tərəfindən təsdiq edilmiş etik davranış qaydaları;

2.1.9. daimi arbitraj təşkilatının fəaliyyətinin şəffaflığına və effektiv daxili nəzarətə dair daimi arbitraj təşkilatının idarəetmə orqanı tərəfindən təsdiq edilmiş sənədlər.

2.2. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin (məlumatların) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün

olduqda, həmin sənədlər (məlumatlar) ərizəçidən tələb edilmir. Belə sənədlərin (məlumatların) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

## 3. Daimi arbitraj təşkilatı kimi akkreditasiyadan keçmək üçün təqdim edilmiş sənədlərə (məlumatlara) baxılması

3.1. Hüquqi şəxsin daimi arbitraj təşkilatı kimi akkreditasiya olunması barədə müraciətə 15 (on beş) iş günü müddətində baxılır və qərar qəbul edilir.

3.2. Təqdim olunmuş sənədlərdə (məlumatlarda) ərizəçi tərəfindən aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, bu barədə bildiriş ərizə və ona əlavə olunan sənədlər (məlumatlar) daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində müraciət edənin elektron poçt ünvanına və ya sifarişli poçt vasitəsilə göndərilir.

3.3. Ərizəçi bu çatışmazlıqları bildirişin göndərildiyi tarixdən etibarən ən geci 7 (yeddi) iş günü müddətində aradan qaldırmalı və Nazirliyə bu Qaydanın 2.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təqdim etməlidir. Nazirlik tərəfindən bildirişin təqdim edilməsi bu Qaydanın 3.1-ci bəndində müraciətə baxılması üçün müəyyən edilmiş müddət axımını dayandırır.

3.4. Daimi arbitraj təşkilatının akkreditasiyası məsələsinə baxılarkən daimi arbitraj təşkilatının qaydalarının Azərbaycan Respublikasının Konstitusiyasına, Qanuna və digər normativ hüquqi aktlara uyğunluğu yoxlanılır, habelə təqdim edilmiş digər sənədlərin (məlumatların) Qanunun tələblərinə və daimi arbitraj təşkilatının öz qaydalarına uyğunluğu qiymətləndirilir.

3.5. Hüquqi şəxsin daimi arbitraj təşkilatı kimi akkreditasiyasından imtina üçün əsaslar olmadıqda onun akkreditasiyadan keçirilməsi barədə qərar qəbul edilir və qərarın qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində müraciət edənə akkreditasiyadan keçməsini təsdiq edən sənəd (2 nömrəli əlavə) təqdim edilir.

3.6. Akkreditasiyadan keçmiş daimi arbitraj təşkilatları haqqında bu Qaydanın 4-cü hissəsində göstərilən sənədlər (məlumatlar) akkreditasiyadan keçirilmə barədə qərarın qəbul edildiyi gündən 3 (üç)

iş günü müddətində Nazirliyin rəsmi internet səhifəsinin xüsusi bölməsində yerləşdirilir.

3.7. Daimi arbitraj təşkilatının akkreditasiyası müddətsizdir.

3.8. Hüquqi şəxsin daimi arbitraj təşkilatı kimi akkreditasiyasından aşağıdakı hallarda imtina edilir:

3.8.1. daimi arbitraj təşkilatının qaydaları Azərbaycan Respublikasının Konstitusiyasına, Qanuna və digər normativ hüquqi aktlara, habelə təqdim edilmiş digər sənədlər (məlumatlar) Qanunun tələblərinə və daimi arbitraj təşkilatının qaydalarına uyğun olmadıqda;

3.8.2. ilkin arbitr siyahısına daxil edilən arbitrlər Qanunun 14-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab vermədikdə;

3.8.3. ərizəçi ona bildirişdə göstərilmiş çatışmazlıqları bu Qaydanın 3.3-cü bəndində göstərilən müddətdə aradan qaldırmadıqda.

3.9. Hüquqi şəxsin daimi arbitraj təşkilatı kimi akkreditasiyasından imtina edilməsi barədə qərar (imtinanın səbəbləri göstərilməklə) qəbul edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir, yaxud sifarişli poçt vasitəsilə göndərilir.

3.10. Akkreditasiyadan keçə bilməyən hüquqi şəxslər təkrar müraciət etmək hüququna malikdirlər.

## 4. Akkreditasiyadan keçmiş daimi arbitraj təşkilatları haqqında Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilən sənədlər (məlumatlar)

4.1. Akkreditasiyadan keçmiş daimi arbitraj təşkilatları barədə aşağıdakı sənədlər (məlumatlar) Nazirliyin rəsmi internet səhifəsinin xüsusi bölməsində yerləşdirilir:

4.1.1. daimi arbitraj təşkilatının akkreditasiyadan keçməsini təsdiq edən sənədin tarixi və nömrəsi, təşkilatın adı, rəhbəri, hüquqi ünvanı, daimi arbitraj təşkilatının ofisinin yerləşdiyi yer;

4.1.2. daimi arbitraj təşkilatının arbitrlərinin siyahısı, onların adı, soyadı, atasının adı, doğulduğu tarix, təhsili, iş stajı barədə məlumatlar;

4.1.3. daimi arbitraj təşkilatının qaydaları;

4.1.4. daimi arbitraj təşkilatının struktur bölmələrinin fəaliyyətini tənzimləyən daxili qaydalar;

4.1.5. daimi arbitraj təşkilatının işçilərinə münasibətdə etik davranış qaydaları;

4.1.6. daimi arbitraj təşkilatının fəaliyyətinin şəffaflığına və effektiv daxili nəzarətə dair təsdiq edilmiş sənədlər.

4.2. Daimi arbitraj təşkilatının akkreditasiyası ləğv edildikdə akkreditasiyanın ləğv edilməsi barədə qərarın tarixi göstərilməklə 3 (üç) iş günü müddətində Nazirliyin rəsmi internet səhifəsinin xüsusi bölməsində müvafiq məlumat yerləşdirilir.

## 5. Akkreditasiyadan keçmiş daimi arbitraj təşkilatının sənədlərində (məlumatlarında) dəyişiklik edilməsi

5.1. Daimi arbitraj təşkilatının Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilən sənədlərində (məlumatlarında) dəyişiklik edildiyi hallarda, həmin təşkilat bu Qaydanın 2.1-ci bəndinin tələbləri nəzərə alınmaqla dəyişiklik edildiyi vaxtdan 5 (beş) iş günü müddətində Nazirliyə bu barədə məlumat təqdim edir (təsdiqedici sənədlərin surəti əlavə olunmaqla).

5.2. Daimi arbitraj təşkilatının adı dəyişdikdə daimi arbitraj təşkilatının akkreditasiya sənədi yenidən rəsmiləşdirilir.

5.3. Bu Qaydanın 5.1-ci bəndinə uyğun olaraq təqdim edilmiş sənədlərə (məlumatlara) bu Qaydanın 3-cü hissəsi ilə müəyyən edilmiş qaydada baxılır.

5.4. Təqdim edilmiş sənədlərdə (məlumatlarda) bu Qaydanın 3.8.1-ci yarımbəndində göstərilən hüquqi şəxsin daimi arbitraj təşkilatı kimi akkreditasiyasından imtinaya səbəb olan hallar olduqda, həmin halların aradan qaldırılması ilə bağlı bildiriş müraciət edənin elektron poçt ünvanına və ya sifarişli poçt vasitəsilə göndərilir.

5.5. Daimi arbitraj təşkilatı tərəfindən bildirişin alındığı tarixdən 10 (on) iş günü müddətində bildirişdə qeyd olunan halların aradan qaldırılması ilə bağlı müvafiq məlumatlar (təsdiqedici sənədlərin surəti əlavə olunmaqla) Nazirliyə bu Qaydanın 2.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təqdim edilməlidir.

5.6. Daimi arbitraj təşkilatı tərəfindən bu Qaydanın 5.1-ci bəndinin tələbləri pozulduğu halda pozuntunun aşkar edildiyi gündən 3 (üç) iş günü müddətində daimi arbitraj təşkilatının elektron poçt ünvanına və ya sifarişli poçt vasitəsilə pozuntunun aradan qaldırılması üçün bildiriş göndərilir.

5.7. Daimi arbitraj təşkilatı bildirişin göndərildiyi tarixdən 5 (beş) iş günü müddətində müvafiq sənədləri (məlumatları) (təsdiqedici

sənədlərin surətləri ilə birlikdə) Nazirliyə bu Qaydanın 2.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təqdim etməlidir.

5.8. Daimi arbitraj təşkilatının sənədlərində (məlumatlarında) edilmiş dəyişikliklər Nazirliyə təqdim edildikdən və Nazirliyin rəsmi internet səhifəsinin xüsusi bölməsində yerləşdirildikdən sonra tətbiq edilir.

## 6. Daimi arbitraj təşkilatının akkreditasiyasının ləğv edilməsi

6.1. Aşağıdakı hallarda daimi arbitraj təşkilatının akkreditasiyası ləğv edilir:

6.1.1. daimi arbitraj təşkilatı tərəfindən onun akkreditasiyasının ləğv edilməsi barədə müvafiq ərizə təqdim edildikdə;

6.1.2. akkreditasiya olunmuş hüquqi şəxsin ləğv edilməsi haqqında məhkəmənin qərarı olduqda;

6.1.3. bu Qaydanın 5.5-ci və 5.7-ci bəndlərinin tələblərinə əməl edilmədikdə;

6.1.4. daimi arbitraj təşkilatının akkreditasiyadan keçmək üçün təqdim etdiyi sənədlərdə (məlumatlarda) faktların (məlumatların) bilərəkdən təhrif olunduğu və ya həqiqətə uyğun olmadığı aşkar edildikdə;

6.1.5. akkreditasiya olunmuş hüquqi şəxs ləğv edildikdə.

6.2. Daimi arbitraj təşkilatının akkreditasiyanın ləğv edilməsi barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir, yaxud sifarişli poçt vasitəsilə göndərilir.

## 7. Yekun müddəa

Hüquqi şəxsin daimi arbitraj təşkilatı kimi akkreditasiyasından imtina və ya daimi arbitraj təşkilatının akkreditasiyasının ləğvi barədə qərarlardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

---

“Daimi arbitraj təşkilatının akkreditasiyası
və akkreditasiyasının ləğvi Qaydası”na

**1 nömrəli əlavə**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyinə

___________________________
(hüquqi şəxsin adı)

tərəfindən

# ƏRİZƏ

Xahiş edirəm

______________________________________________________________________
(hüquqi şəxsin adı, hüquqi ünvanı)

daimi arbitraj təşkilatı kimi akkreditasiyadan keçirəsiniz.

Ərizəyə əlavə edilən sənədlərin və məlumatların siyahısı:

__________________________________________________________________________
__________________________________________________________________________
__________________________________________________________________________

Hüquqi şəxsin əlaqə telefonu, elektron poçt ünvanı:

__________________________________________________________________________
__________________________________________________________________________
__________________________________________________________________________

Hüquqi şəxsin rəhbəri

______________________________________________________________________
(imzası, soyadı, adı, atasının adı)

“______” ___________ 20___ il

M.Y.

**Qeyd.** Hüquqi şəxsin müraciəti möhürlə təsdiq edilməlidir.

“Daimi arbitraj təşkilatının akkreditasiyası və
akkreditasiyasının ləğvi Qaydası”na

**2 nömrəli əlavə**

# Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

# Akkreditasiya sənədi

# № ___

Bu sənədlə təsdiq edilir ki, ________________________________________________________________
(hüquqi şəxsin adı)

daimi arbitraj təşkilatı kimi akkreditasiyadan keçmişdir.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**

_______________________________ (soyadı və adı)    _______________ (imza)

Bakı şəhəri “____” ___________ 20___ il

**M.Y.**